**Qasımoğlu, Nəriman**. Şuşaya az qalıb... / N. Qasımoğlu // Ədəbiyyat qəzeti. - 2020. - 31 oktyabr. - **№ 48**. - S. 4-5.

Azərbaycan ordusunun Qarabağda hazırkı zəfər yürüşləri davam etdikcə, torpaqlarımız şəhidlərimizin mübarək qanı bahasına qarış-qarış azad olduqca qarışıq duyğularla qolboyunam. Elə bil hiss-həyəcanımı da cilovlamışam ki, ürəkdən sevinməyimi saxlayım son qələbə akkordlarının vurulacağı günə.

Əhvalıma ailə xatirələrim də yoldaşlıq edir...

Təxminən 20 il əvvəlin söhbətidir. Televiziyada Qarabağ münaqişəsinin həlli yollarından veriliş gedirdi. Övladım Türkərin o zaman 12-13 yaşı olardı. Verilişi diqqətlə dinləyirdi. Birdən qayıtdı:

- "Paket variantı" nə deməkdir?

Uşaqlara aydın və anlaşıqlı dildə deməli idim, dedim də:

- Ermənilər istəyir Dağlıq Qarabağ onlarda qalsın. İşğal elədikləri başqa torpaqları guya bu şərtlə bizə qaytara bilərlər.

- Hansı torpaqları?

- Məsələn, Ağdamı, Füzulini, Qubadlını...

Qəsb edilmiş rayonları sadalamağa macal vermədən sözümü kəsib soruşdu:

- Bəs Şuşa?

- Şuşanı qaytarmaq fikirləri yoxdur, ümumiyyətlə.

Deyəsən, çox amansızca demişdim bu sözləri.

- Şuşasız Ağdam, Füzuli, Qubadlı bizə heç lazım da deyil, - ağlamsınaraq dedi.

Kiçik bacısı Humay söhbətə qoşuldu və bəlkə ona görə qoşuldu ki, bizə ürək-dirək versin. Xasiyyətcə xeyli həlim qızcığaz gözləmədiyim bir ötkəmliklə:

- Ermənilər kimdirlər ki, bizim torpaqları tutub saxlasınlar, hücum çəkib əllərindən alarıq.

Ovqatım gerçəkdən azacıq duruldu. Elə fikirləşməyə başlayırdım, görəsən, Türkərin üzünü görmədiyi Şuşa həsrəti haradan gəlir. Dərhal yadıma düşdü. Babası Qasım Qasımzadənin ötən əsrin altmışıncı illərində yazdığı "Zümrüd tac" adlı məşhur şeiri var, bu şeiri o, əzbər bilir. Bilməyənlər üçün xatırladım, həmin misralarda Qarabağ yurdu gözəl bir qız obrazındadır. Poetik bənzətmə belə tamamlanır:

Bədxahı boğmaqçün qəsdinə duran

Xaçın, Qarqar onun qoşa saçıdır,

Başının üstündə yanıb bərq vuran

Şuşa Qarabağın zümrüd tacıdır.

Yeri gəlmişkən, bu şeirin o zamanlar dərcindən sonra Şuşa ilə bağlı söhbətlərdə "zümrüd tac" ifadəsi ilkin müəllifi unudulmuş xalq deyimlərindən birinə çevrilmişdi...

Başqa bir xatirəm düz 35 il əvvələ aiddir. O zamana ki, Şuşa bizdə ola-ola yenə də "dərd" verirdi.

1983-cü il idi. Moskvada çıxan "Oqonyok" jurnalında bir erməni memarı haqqında yazı getmişdi. Məqalə bu sözlərlə başlayırdı ki, bəs həmin adam "qədim erməni şəhəri Şuşada doğulub". O bircəcik ifadəyə etirazımı bildirməkdən ötrü redaksiyaya sicilləmə bir məktub yazdım. İnsafən, çox keçmədi, jurnalın bədii redaktorunun imzasıyla cavab aldım: "Uvajaemıy tovarih Nariman Kasumzade! V statğe "Skulğptor Okop Qördjan" deystvitelğno vkralasğ oşibka. Sluçay gtot rassmotren na zasedanii redkolleqii jurnala, sdelanı sootvetstvuöhie orqvıvodı i vinovnıe ponesli nakazanie. V 3№ "Oqonğka" za gtot qod poslednəə oblojka i material A.Jiqaylova "Rodniki qornoqo kraə" posvəhenı Naqornomu Karabaxu, jemçujine Azerbaydjana". V iöle, koqda budet otmeçatğsə 60-letie gtoy avtonomnoy oblasti, "Oqonek" predpolaqaet datğ bolğşuö publikaüiö, posvəhennuö znamenatelğnoy date. S uvajeniem, Litredaktor otdela oformlenia O. Nemirovskaə".

Şuşamız Azərbaycanın tam nəzarətində olduğu vaxtlarda da ziyalılarımız onun taleyilə bağlı narahatlıq keçiriblər. Rəsul Rza 1980-ci ildə qələmə aldığı "Şuşam mənim" şeirində yazırdı:

...Sənin doğma torpağında

Neçələrin gözü qalıb.

Vətən adlı doğma yurddan

Püşk olarmı?

Pay olarmı?

Yüz bir şəhər adı çəkim, -

Gözəllikdə

Biri sənə tay olarmı?

Əlbəttə, Şuşanın gözəlliyi təkcə təbiətində deyil, bu gözəllik onun suyunu içmiş, havasını udmuş adamların da xarici görkəmində, səslərinin məlahətində idi ki, bunun Q.Qasımzadənin qələmindən çıxan belə bir poetik ifadəsi bizim o çox da uzaq olmayan Şuşalı illərimizin xatirələrinə işıq tutur:

Hara getsək bizi çağırır Şuşa,

Bilirsizmi, nədir bundakı hikmət:

Üç gözəl söz ilə yaranmış qoşa -

Gözəl səs! Gözəl qız! Gözəl təbiət!

Qasım Qasımzadənin ötən əsrin 40-50-ci illərə aid şeir dəftərində sonralar Telman Hacıyevin bəstəsində "Qonşu olmaq istəmirəm səninlə" mahnısına çevrilmiş şeirin ilkin variantı var, "Qonşu qız" başlığı altındadır. Şair bu sözlərin üzərində sonradan işləmiş, şeirin süjet xəttinə əlavələrdə qonşu qızın xitablarını da əlavə etmişdir. 1950-ci ilin iyul ayının 31-də qələmə aldığı sətirlər belə səslənirdi:

Qonşu kimi biz hər axşam, hər səhər

Gəzdik Şuşa dağlarında bərabər.

İndi sənə bir sözüm var, a dilbər,

Soruşmadan səbəbini gəl dinlə:

Qonşu olmaq istəmirəm səninlə.

Nə zaman ki, baxışımız öpüşür,

Bu atəşdən varlığıma od düşür.

Ah, bu yerdə günlər nə tez ötüşür...

Bir arzum var, coşub gəlir o dilə:

Qonşu olmaq istəmirəm səninlə.

Sənsiz heçdir bu yerlərin səfası,

"Daşaltı"nın, "Şuşakənd"in havası,

Müxtəsəri budur, sözüm qısası:

Köç büzə gəl, quraq təzə ailə,

Qonşu olmaq istəmirəm səninlə.

İndi düşünürəm, Şuşanın bütün özəllikləri yalnızca azərbaycanlıların qismətinə yazılıbmış, Şuşanın aurası yalnızca azərbaycanlıları belə duyğulandıra, gözəlləşdirə bilərmiş. Zəndeyi-zəhləm gedən bir nəsnəyə - milli nifrətə yozulmasın, amma qəti əminəm, ermənilər Şuşanın suyundan nə qədər içsələr də, havasından nə qədər udsalar da, şuşalıların o gözəl səsinə, görkəminə heç zaman sahiblənə bilməmişlər. Və əlbəttə, heç zaman Şuşalı ola bilməyəcəklər.

Xatirələrim cığırlana-cığırlana məni ötən əsrin uzaq 60-cı illərinə də aparır. O zamana ki, Şuşa ilə ilk tanışlığımın əsası qoyulmuşdu.

Uşaq marağı ilə Cıdır düzü şənliklərini seyr edərdim. Qonaqlıq məclislərimizi İsa bulağına salardıq, sanatoriyalarda dincələn yazıçılarla, sənət adamları ilə valideynlərimin şirin söhbətlərini dinləyərdim.

Təxminən 6-7 yaşım olardı, bir dəfə ailəlikcə Şuşaətrafı meşəlikdə gəzişirdik. Bir də baxdıq gün əyilib, qaranlıq düşməkdədir, qərarlaşdıq sanatoriyaya qayıdaq. Axşamın alatoranlığına qarışmış səssizliyini bir cüt quşun söhbətləşirmişlər kimi səs-səsə verməsi pozurdu. Qasım müəllim biz uşaqlara dedi:

- Qulaq asın görün bu quşlar bir-birinə nə deyir.

Maraqla ondan cavab gözlədiyimizi duyub bir-birini səsləyən həmin o quşların ahəngilə oxudu:

- İsa! Musa! Tapdın? Yox?

Və sonra başladı İsa-Musa quşlarının məlum folklor süjetini danışmağa. Əhvalat kədərli bir süjetə bağlansa da, sonluğu o zaman məndən ötrü faciəvi də deyildi, çünki quşa döndərilmiş iki qardaş itirdikləri quzuya görə heyvan sahibinin cəzasına tuş gəlməmişdilər. Ta böyüyənə qədər mənə elə gəldi o İsa-Musa qardaşları - quşları yalnız Şuşa meşəsindədirlər, gedəcəkləri başqa yer yoxdur. Və mənim uşaq beynimə Şuşa həm də belə bir ilkin obrazda həkk olunmuşdu - qoynunda o məsum ruhları saxlayan yeganə bir yer kimi. Lap yaxınlarda Şuşanın şüuraltımdakı bu obrazı xatirələrimə bir kövrəklik də gətirdi.

Şuşanı ilk olaraq bizə sevdirmiş Qasım müəllimin əlyazmalarını, arxivinin materiallarını səliqəyə salırdım ki, dövlət arxivinə təhvil verim. Demə o, yuxarıdakı folklor süjeti əsasında 1945-ci ildə "Sirli gecə" adlı bir hekayə də qələmə alıbmış. Birinci və sonuncu hekayəsini... 1956-cı ildə "Azərbaycan məktəbi" jurnalında dərc etdirdiyi həmin yazı bu sözlərlə bitir: "O quşları görən yoxdur, yalnız səssiz bahar axşamlarında onların qeybdən gələn tanış səslərini hamı eşidir: İsa! Musa! Tapdın? Yox!".

Görəsən, indinin özündə necə, o quşlar yenə dəmi Şuşaətrafı meşəlikdə bir-birini səsləyirlər. Səsləyirlərsə, eşidən varmı? Yenə də milli nifrətə yozulmasın, o mənfur düşmənin genetik olaraq eşitməsi yoxdur axı, İsa-Musa quşlarının nə dediyini anlaya bilsin...

İndi də qayıdıram 215 il əvvələ, o zamana ki, biz yox idik, babalarımız vardı. O babalarımız ki, Şuşanı bir xeyli öncədən qurub yaratmışdılar, yaşatmışdılar, Şuşa da onları öz qoynunda yaşatmışdı...

Arxaya - Kürəkçay müqaviləsinin imzalandığı o məşum 1805-ci ilə baxıram, yırtıcı rus imperiyası qoşunlarının önündə Qarabağın duruş gətirmədiyi, imperiyanın tərkibinə qatıldığı bir çağa. Müqavilədə yazılır: "Vo imə Vsemoquheqo Boqa. Mı, t.e. İbraqim xan Şuşinskiy i Karabaxskiy i Vserossiyskix voysk qen.-ot.-infanterii, Kavkazskoy inspeküii po infanterii inspektor... kn. Pavel Üiüianov po polnoy moçi i vlasti, dannoy mne ot Eqo imperatorskoqo Veliçestva, Vsemilostiveyşeqo moeqo velikoqo Qosudarə İmperatora Aleksandra Pavloviça, pristupiv s pomohğö Bojeö k delu o vstuplenii İbraqim-xana Şuşinskoqo i Karabaxskoqo so vsem eqo semeystvom, potomstvom i vladeniəmi v veçnoe poddanstvo Vserossiyskoy imperii... zaklöçili, postanovili i podpisali na sleduöhix artikulax...". İbrahim xanın bu sənəddə imzası ayrılmaz bir söz tərkibi kimi "Şuşalı və Qarabağlı" olaraq keçir. Məncə, Qarabağ davamızın sona yetməsi üçün bunun rəmzi mənası var. Yəni Şuşasız nə Qarabağ?

Balaca Humay deyəndə ki, "ermənilər kimdirlər ki, bizim torpaqları tutub saxlasınlar, hücum çəkib əllərindən alarıq", susmuşdum. Babası bir şeirində buna işarə ilə yazmışdı:

Basmaq istər qurdu köpək,

Arxası - ağ ayısı var.

Amma Qasım müəllim həmin şeirində ümidsiz də deyildi:

Ona da Bozqurd deyərlər,

Şəstini çətin əyələr.

Min il nəslini öyüblər,

Min il nəslini öyərlər.

Bu sətirlərdən əvvəl yazdığı qeydləri isə ağrısız oxumaq olmur: "Əgər biz inansaq ki, Şuşa biryolluq əlimizdən çıxıb, Xocalı həqarəti, Laçın bədnamlığı ilə birdəfəlik

barışası olacağıq, elə bilirəm, Azərbaycan qeyrətli hər bir vətəndaşın fikrini ifadə edib deyərdim ki, onda daha yaşamağın mənası qalmamışdır. Bir adı Qala, bir adı da Pənahabad olan Şuşa təkcə bu günümüz yox, tariximizdir, sərkərdələr, sənətkarlar yetirən əcdadımızın yadigarıdır, Pənah xanı, İbrahim xanı, Vaqifi, Natəvanı, Adıgözəl bəyi, Mehmandarovu, Xosrov bəyi, Sultan bəyi, Üzeyir bəyi, Seyidi, Xanı, Bülbülü yetirən diyardır. Şuşa bizim qartal qıylı, bülbül cəhcəhli yuvamızdır. Buna görə də indi Şuşasız günlərimdə mən özümü yuvasız quş sayıram...".

Qasım müəllimdən sonra, düz 27 il əvvəl Şuşa dərdi mənə aşağıdakı sətirləri yazdırmışdı:

Bu da bir taledir payıma düşüb -

Şuşasız günləri yaşamaqdayam,

özüm öz dərdimin hayına düşüb

hüceyrə-hüceyrə aşınmaqdayam.

Ağzım dualıdır, ürəyim dolu,

zillənib gözlərim o uca taxta.

Tanrı dərgahına uzanan yolu

onsuz necə gedim bu qara baxtla?

Baxışı cığıra, yola dikili

Şuşam, səni bəklər bozqurdum mənim,

di atıl qabağa cumaq irəli,

itirib səmtini başsız bədənim.

Şuşasız qalmışam mən günüqara,

nə yaxşı susmayır, sızlayır yaram.

Qoymaram ürəyim dönə məzara,

qoymaram bu dərdi ölə basdıram.

Bu yanğı sönməz də köz olub qalar

içimdə, bu dərddir məni isidən.

Şuşa bir xitabət kürsüsü olar,

söylərəm son sözü həmin kürsüdən.

İndi artıq hamılıqla sevinirik ki, "başsız" deyilik. Qətiyyətli Komandanımız var. Hər əsgəri Bozqurd xislətli ordumuz var: zirvə-zirvə "gah o dağdan, gah bu dağdan" könlümüzcə Qarabağdan keçir. Cəbrayılı, Füzulini, Hadrutu, Suqovuşanı, Zəngilanı, Qubadlını, yüzdən artıq kəndləri azad edib düşməndən. Şuşaya az qalıb. "Havalanır Xanın səsi. Üzümüz səsə doğru" yazır indi artıq böyümüş Humay.

"Qarabağ şikəstəsi"nin zəngulələrini Azərbaycan əsgərinin atəşləri səsləndirir. Nə möhtəşəm musiqi! Lap Şuşanın şəninə layiq.